AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ

BAKI - 2025

Kitabın məzmunu "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.

Xəlilli, Fariz. (Hazırlayan). (2025). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. Bakı: AFPoliqrAF.

16-25 iyul 2025-ci il tarixlərində "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi ilk dərslərinə başlamışdır. Dərslər müxtəlif mədəni irs mövzularında olub, Azərbaycan, Türkiyə, İtaliya irs mütəxəssisləri tərəfindən aparılmışdır. Təlimçilərin mühazirələri tədris vəsaiti şəklində nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Qafar Cəbiyev
Rəyçilər: Prof.Dr. Kübra Əliyeva
Prof.Dr. Şikar Qasımov

Tərcümə: Fariz Xəlilli
Dizayn: İntiqam Məhəmmədli
Koordinator: Məleykə Hüseynova
Fotolar: Nicat Nağızadə, Fariz Xəlilli, Elmira Abbasova, Fidan Xəlilli, Fərid Xəlilli

ISBN: 978-9952-8561-2-5

© "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2025

# MÜNDƏRİCAT

Prof.Dr. Qafar Cəbiyev - MƏDƏNİ İRS USTAD MƏKTƏBİ KURSUNA GİRİŞ VƏ YA MƏDƏNİ İRSİN TƏDQİQİ, QORUNMASI VƏ TƏŞVİQİ İSTİQAMƏTİNDƏ PRİORİTETLƏR: ƏNƏNƏVİ YANAŞMALAR VƏ YENİ ÇAĞIRIŞLAR ........ 6
https://doi.org/10.30546/978-9952.2025.1006

Prof.Dr. Luici Skrinzi - ZƏRGƏRPALAN HAMAMI: BEYNƏLXALQ TƏDQİQAT VƏ KONSERVASİYA MİSSİYASI ........ 18
https://doi.org/10.30546/978-9952.2025.1018

Dr. Fariz Xəlilli - MƏDƏNİ İRS ABİDƏLƏRİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ........ 25
https://doi.org/10.30546/978-9952.2025.1025

Məleykə Hüseynova - MƏDƏNİ İRSİN QORUNMASI SAHƏSİNDƏ MİLLİ VƏ BEYNƏLXALQ TƏNZİMETMƏ ........ 43
https://doi.org/10.30546/978-9952.2025.1043

Dos.Dr. Günel Seyidəhmədli - AZƏRBAYCANIN TARİX-MƏDƏNİYYƏT QORUQLARI ........ 65
https://doi.org/10.30546/978-9952.2025.1065

Prof.Dr. Şikar Qasımov - AZƏRBAYCANIN QEYRİ-MADDİ MƏDƏNİ İRSİ VƏ ONUN YUNESKO-DAKI YERİ ........ 87
https://doi.org/10.30546/978-9952.2025.1087

Dos.Dr. Pərvin Ahənçi - TARİXİ-MƏDƏNİ İRSİN RƏQƏMSALLAŞDIRILMASI ........ 103
https://doi.org/10.30546/978-9952.2025.1103

Dos.Dr. Həbibə Əliyeva - MƏDƏNİ İRS ABİDƏLƏRİ ÜZƏRİNDƏKİ EPİQRAFİK TƏDQİQATLAR ........ 129
https://doi.org/10.30546/978-9952.2025.1129

Dr. Şəhla Xəlilli - DÜNYA YADDAŞI: ƏLYAZMA İRSİ ........ 142
https://doi.org/10.30546/978-9952.2025.1142

Dr. Nəzmin Cəfərova - MUZEYLƏR MƏDƏNİ İRSİN KEŞİYİNDƏ ........ 154
https://doi.org/10.30546/978-9952.2025.1154

Gülşən Hüseynova - FÖVQƏLADƏ HALLAR ZAMANI MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ ........ 185
https://doi.org/10.30546/978-9952.2025.1185

Arzu Həsənli - MƏDƏNİ İRSİN SOSİALLAŞMASI VƏ ONUN CƏMİYYƏT ÜÇÜN ƏHƏMİYYƏTİ ........ 205
https://doi.org/10.30546/978-9952.2025.1205

Aidə Məlikova - MƏDƏNİ İRS TURİZMİ ........ 211
https://doi.org/10.30546/978-9952.2025.1211

Prof.Dr. Zahidə Məmmədova, Dos.Dr. Məhəmməd Nurməmmədov - MEMARLIQ ABİDƏLƏRİNİN BƏRPASI VƏ KONSERVASİYASI ........ 224
https://doi.org/10.30546/978-9952.2025.1224

Cəlaləddin Küçük, Nadirə Minə Yar - BƏRPA VƏ KONSERVASİYADA MATERİALLAR ........ 246
https://doi.org/10.30546/978-9952.2025.1246

Əfqan Quliyev - BƏRPA LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ UĞURLU TƏCRÜBƏLƏR ........ 259
https://doi.org/10.30546/978-9952.2025.1259

Prof.Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli, Dr. Elmira Abbasova - Bakı şəhəri Yasamal rayonu Həmidağa Hüseynzadə küçəsində yerləşən Hamam binası daxilində və ətrafında konservasiya və təmizləmə işləri çərçivəsində aparılan arxeoloji tədqiqatların HESABATI ........ 263
https://doi.org/10.30546/978-9952.2025.1248

# MƏDƏNİ İRS ABİDƏLƏRİ ÜZƏRİNDƏKİ EPİQRAFİK TƏDQİQATLAR

Həbibə Əliyeva
Tarix üzrə fəlsəfə doktoru, dosent
Milli Azərbaycan Tarixi Muzeyi
https://doi.org/10.30546/978-9952.2025.1129

**Giriş.** Epiqrafika (yunanca ἐπιγραφή – "yazı", "bərk cisimlər üzərində cızmaq") – qədim və orta əsrlərə aid yazıların toplanması, nəşri və tədqiqi ilə məşğul olan köməkçi tarix elmi sahəsidir. Hələ qədim zamanlardan Azərbaycanda daş üzərində müxtəlif rəsmlərin çəkilməsi adət-ənənəsi mövcud olmuşdur. Bu, Qobustan, Şüvəlan, Kəlbəcər, Zəngəzur, Gəmiqaya (Ordubad) və digər ərazilərdə aşkar edilmiş qayaüstü təsvirlərdən – petroqliflərdən aydın şəkildə görünür (Rzayev, 2019: 392).

İlk orta əsrlərdə daş üzərində oyma və cızma üsulu ilə bəzək vurmaq, fiqur həkk etmək və müxtəlif məzmunlu heykəllər düzəltmək geniş yayılmışdır. Bu ənənə, qədim Yunan və Roma abidələrindən günümüzə qədər uzanan yazılı abidələrin tədqiqi ilə zənginləşmişdir və epiqrafika bu yazılı abidələri öyrənən elmi sahə kimi mühüm rol oynayır.

Buna misal olaraq, Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan, Şamaxının Xınıslı və Acıdərə–Çıraqlı ərazilərindən tapılmış, müxtəlif dağ cinsli daşlardan yonulmuş və fərqli ölçülərə malik məzarüstü heykəlləri (II-V əsrlər), eləcə də Qarabağ, Gədəbəy, Lənkəran bölgələrində aşkarlanmış, təqribən 3000 illik tarixə malik nəhəng daş qutu qəbirləri göstərmək olar.

**Azərbaycanda ilk yazı nümunələri.** Azərbaycanın indiyədək məlum olan ilk yazılı abidəsi Xocalı ərazisindən aşkar edilmiş, e.ə. X-VIII əsrlərə aid mixi yazılı əqiq muncuqdur. Bu tapıntı XX əsrin əvvəllərində kurqandan aşkarlanmış, lakin hazırda Sankt-Peterburqdakı Ermitaj Muzeyində saxlanılır. Muncuq üzərində "Kainat hökmdarı Adad-Nirarinin sarayı" sözləri həkk olunmuşdur (Azərbaycan Tarixi, 1996: 109).

1948-ci ildə Bakı şəhərindən təxminən 70 km cənub-qərbdə yerləşən Qobustan ərazisində qaya təsvirlərini tədqiq edən arxeoloq İshaq Cəfərzadə, Böyükdaş adlanan dağın yamacında latın dilində yazılmış unikal bir kitabə aşkar etmişdir. Altı sətirdən ibarət olan bu yazıda qeyd olunmuşdur: "İmperator Domisian Sezar Avqust Germanikin dövrü, Lutsi Yuli Maksim – İldırımsürətli XII legionun sentirionu" (Rüstəmov, 1994: 28). Bu kitabə Roma imperiyasının I əsrdə Xəzər sahillərinə qədər irəlilədiyini və burada hərbi fəaliyyət göstərdiyini sübut edən mühüm epiqrafik sənəddir.

İslamdan əvvəlki dövrlərə aid müxtəlif möhürlər və əşyalar üzərindəki yazılar, xüsusilə numizmatik baxımdan, professor Yevgeni Paxomov tərəfindən tədqiq edilmişdir. O, bu yazıların tipləri, dilləri və funksiyaları barədə ətraflı məlumat vermişdir (Paxomov, 1949: 106-110). I-II əsrlərə aid digər yazılı epiqrafik nümunə isə Şəkinin Böyük Dəhnə kəndi yaxınlığındakı xarabalıqlarda tapılmışdır. Bu daş üzərində qədim yunan əlifbası ilə oyma üsulu ilə yazılmış aşağıdakı ifadə yer alır: "Xeyirxah Eliy Yasondan Evnona əbədi xatirə". Bu yazı Eliy Yasonun Evnonun xatirəsini əbədiləşdirmək məqsədilə tikdiyi abidəyə aiddir. Kitabə hal-hazırda Tbilisi Dövlət Tarix Muzeyində qorunur (Azərbaycan Tarixi, 1996: 109).

Azərbaycan ərazisindəki yazılı abidələr arasında arami dilində olan nümunələr də xüsusi yer tutur. Naxçıvanın Ordubad rayonundakı Xarabagilan orta əsr şəhərinin qala divarları xaricində

aparılmış arxeoloji qazıntılar zamanı II–IV əsrlərə aid bir qəbirdə arami yazılı gil dolça aşkar edilmişdir. Dolçanın boyun hissəsində qara boya ilə aşağıdakı ifadələr yazılmışdır: "Və insan həyatı naminə", "Bizi əziyyətdə qoyma", "Amin, amin, amin" (Qaşqay, 2006: 14, 22). Bu unikal tapıntı hazırda Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır.

Azərbaycanın qədim yazılı abidələri sırasında alban yazısı ilə yazılmış kitabələr də mühüm yer tutur. Mingəçevir şəhərində, qədim Qafqaz Albaniyasına məxsus müqəddəs məbədin yerində aparılan arxeoloji qazıntılar zamanı IV-VI əsrlərə aid alban kitabəsi aşkar edilmişdir. İri ölçülü daş lövhə üzərində 21 işarədən ibarət, 4 sətirlik mətn həkk olunmuşdur. Lövhədə, həmçinin, üz-üzə dayanmış iki tovuz quşu və onların arasında yerləşən lalə gülü təsvir edilmişdir. Bu simvol od və alov ilahəsinin rəmzi sayılır. Lakin bu günə qədər həmin kitabənin müəyyən hissəsi oxunmamış qalır (Əliyev, 1992: 80).

Yazının meydana çıxması daş abidələrin tarixdəki rolunu daha da önəmli etmişdir. Əslində, epiqrafik abidələr yalnız sadə yazı nümunələri deyil, həm də tarixi faktların, sosial quruluşun və mədəni dəyərlərin maddi daşıyıcıları kimi çıxış edir. Azərbaycanın müxtəlif bölgələrində aşkar edilmiş yazılı abidələr ölkənin qədim və orta əsrlər tarixinin öyrənilməsində əsas mənbələrdən biridir. Bu abidələr fərqli dövrlərə, əlifbalara, mövzulara və materiallara əsaslanaraq zəngin bir epiqrafik irsi formalaşdırmışdır.

Azərbaycan xalqının əsrlər boyu yaratdığı və gündəlik həyatında istifadə etdiyi əl sənətləri, həm funksional, həm də estetik dəyərə malik olmuşdur. Aparılan arxeoloji tədqiqatlar göstərir ki, qədim dövrlərdən etibarən bu ərazilərdə yaşamış tayfalar daş, gil, taxta, şüşə, metal və digər materiallardan istifadə edərək məbəd əşyaları, saxsı qablar, toxuculuq alətləri, silahlar və bəzək əşyaları hazırlamış, beləliklə özlərinin məişət, iqtisadi və ideoloji sistemlərini bu materiallarda əks etdirmişlər. Bu obyektlər, həmçinin, epiqrafik yazıların daşıyıcısı olaraq da çıxış etmişdir.

VII-IX əsrlərdən etibarən Azərbaycanın İslam dinini qəbul etməsi ilə dini-mədəni həyat yeni bir mərhələyə daxil olmuş, bu proses memarlıqda, təsviri və tətbiqi sənətdə, xüsusilə epiqrafik nümunələrdə öz əksini tapmışdır. Bu dövrdə məscidlər, minarələr, saraylar, türbələr kimi monumental memarlıq nümunələri inşa edilmiş, məzarüstü abidələrdə və digər dini obyektlərdə daş oyma sənəti yüksək inkişaf səviyyəsinə çatmışdır (Bünyadov, 1989: 336).

İslam dövrü epiqrafik nümunələrində həm ərəbcə Quran ayələri, həm epitafiyalar, həm də xeyriyyə məqsədli kitabələr geniş yayılmışdır. Bu yazılar, həm dövrün dini-mənəvi dünyagörüşünü, həm də memarlıq və sənətkarlıq ənənələrini əks etdirməsi baxımından əvəzsiz mənbədir. Bu cəhətləri ilə İslam dövrü epiqrafik abidələri, Azərbaycan elminin, mədəniyyətinin və incəsənətinin təkrarsız və əvəzsiz mirası hesab olunur.

**Qanunvericilik.** Tarix və mədəniyyət abidələrini xalqın milli sərvəti kimi qəbul edən Azərbaycan Respublikası bu sahədə məqsədyönlü hüquqi çərçivə formalaşdırmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 77-ci maddəsinə əsasən tarix və mədəniyyət abidələrinin qorunması hər bir vətəndaşın borcu hesab olunur (Konstitusiya, 1995). Bu prinsiplərin hüquqi təminatı məqsədilə 10 aprel 1998-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanun imzalanmışdır (Azərbaycan Respublikası, 1998). Qanun səkkiz fəsil və otuz iki maddədən ibarətdir. I fəsilin 2-ci maddəsində abidələrin anlayışı və təsnifatı verilir. Burada tarix və mədəniyyət abidələri arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik və antropoloji materiallar, həmçinin tarixi hadisə və şəxsiyyətlərlə bağlı bina, xatirə yerləri və əşyalar kimi müəyyənləşdirilir. Abidələr aşağıdakı kimi iki əsas qrupa bölünür:

- Daşınar (səyyar) abidələr – muzeylərdə, fondlarda və sərgilərdə qorunan əşyalar;

- Daşınmaz (stasionar) abidələr – yerində qorunan arxeoloji və memarlıq obyektləri.

Epiqrafik abidələr üzərində yazılar olan daş, gil, ağac və metal nümunələri kimi təsnif olunur və həm daşınar, həm də daşınmaz xarakter daşıya bilər. Bu abidələr muzey və fondlarda, eyni zamanda aşkar edildikləri yerlərdə qeydə alınaraq qorunur. Lakin epiqrafik abidələrə dair ayrıca qanun mövcud deyil, onlar "tarix və mədəniyyət abidələri" anlayışı çərçivəsində ümumi şəkildə nəzərdə tutulur (Azərbaycan Respublikası, 1998).

Mədəni irsin qorunması sahəsində dövlət siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən ardıcıl şəkildə dəstəklənir. Onların təşəbbüsü ilə Şirvan və Naxçıvan memarlıq məktəblərinə aid bir sıra abidələr bərpa olunmuş, işğaldan azad edilmiş ərazilərdə isə genişmiqyaslı bərpa və yenidənqurma layihələri həyata keçirilmişdir (President.az, 2023).

Azərbaycan ərazisində mövcud olan epiqrafik abidələr arasında ərəb qrafikalı kitabələr qədimliyi, zənginliyi və müxtəlifliyi ilə seçilir. Bu kitabələrin əhəmiyyətli hissəsi hazırda İran, Ermənistan, Gürcüstan və Dağıstan ərazilərində yerləşən tarixi Azərbaycan torpaqlarında mövcuddur. Azərbaycanda İslamın erkən dövrlərdə yayılması nəticəsində ərəb əlifbası ilə yazılmış epiqrafik abidələrin Qafqaz bölgəsindəki ən qədim nümunələrinə daha çox bu ərazilərdə rast gəlinir.

Ərəb qrafikalı abidələr yazı dili baxımından aşağıdakı qruplara bölünə bilər:

- Ərəb qrafikası ilə ərəbdilli kitabələr;
- Ərəb qrafikası ilə türkdilli kitabələr;
- Ərəb qrafikası ilə farsdilli kitabələr;
- Ərəb qrafikası ilə digər dillərdə olan kitabələr (Alyılmaz, 2010: 9-23).

XI-XIII əsrlərdə Azərbaycanın memarlıq məktəbləri - Şirvan, Naxçıvan və Qarabağ memarlıq məktəbləri öz dövrünün ən tanınmış sənət məktəbləri sırasında yer alırdı. Bu məktəblərin abidələrində ərəb əlifbasının müxtəlif xətt növlərinə - kufi, sülüs, nəsx, nəstəliq, reyhani və digər üslublara geniş yer verilmişdir. Ornamentlərin memarlıq elementləri ilə vəhdət təşkil etdiyi bu abidələr həm dini, həm də ictimai məkanların bədii-estetik dəyərini artırmışdır.

Azərbaycan ərazisindəki mühüm İslam memarlıq abidələri sırasında X-XI əsrlərə aid Məhəmməd məscidi (Sınıqqala), XII əsrə aid kitabəsi olan Qız Qalası və XIII–XVI əsrləri əhatə edən Şirvanşahlar saray kompleksi xüsusilə qeyd olunmalıdır (Aşurbəyli, 1974: 47-52). Şirvan memarlıq məktəbi daş üzərində işlənmiş epiqrafik elementləri ilə də fərqlənmişdir. Şamaxı, Dərbənd, Şabran, Quba, Qusar, Şəki, Qəbələ kimi bölgələrdə inşa edilən abidələr, həmçinin Şamaxıda yerləşən Kələxana türbələri, Yeddi Günbəz, Şeyx Xəndan, Diri Baba və Ağsudakı Şeyx Dursun türbələri ətrafındakı qəbiristanlıqlarda bu sənət nümunələrinin müxtəlif formaları qorunub saxlanılmışdır (Azərbaycanın tarixi abidələri, 1958; Nemət, 1991: 240).

Bu qəbiristanlıqlardakı məzar daşları əsrlər boyu yeraltı və yerüstü təbii təsirlərə məruz qalmış, lakin ərəb xəttatlıq sənətinin nadir örnəklərini üzərində daşımağı davam etdirmişdir. Həkkaklar həmin dövrlərdə kufi və digər xətt növlərindən istifadə edərək yüksək estetik dəyərə malik yazılar və bəzəklər yaratmışlar (Nemət, 2001: 368; Nemət, 2008: 168; Nemət, 2011: 240).

Azərbaycanda həkkaklıq sənətinin təşəkkül dövrü əsasən IX-XII əsrlərə aid edilir. Bu, arxeoloji və təsadüfi tapıntılarla da təsdiqlənir. Məsələn, Milli Azərbaycan Tarixi Muzeyində qorunan XI əsrə aid kufi xəttlə ərəb dilində həkk olunmuş Şəmkir kitabəsi, XII əsrə aid İçərişəhərdəki Qoşa Qala divarındakı kitabələr, həmçinin sənduqələr və epitafiyalar bu sənətin konkret nümunələri kimi təqdim olunur.

Həkkaklıq sənəti İslam sivilizasiyasında, o cümlədən Azərbaycanda, sadəcə yazı texnikası deyil, həm də dekorativ-tətbiqi sənətin mühüm qolu kimi formalaşmışdır. Ərəb hərflərinin dekorativ formada daş üzərində tətbiqi bu sahədə peşəkar sənətkarların yetişməsinə səbəb olmuş, nəticədə ərsəyə gələn kitabələr təkcə dini məzmunlu deyil, həm də incəsənət baxımından dəyərli əsərlər kimi tarixə düşmüşdür.

Həkkaklıq sənətində nəbati və həndəsi ornamentlər, insan və heyvan təsvirli motivlərlə yanaşı, ərəb qrafikasının bütün xətt növləri ilə yazılmış kitabələr tətbiqi sənət nümunələrini bəzəmişdir. Azərbaycan həkkaklarının bacarıqlı fəaliyyəti nəticəsində meydana gələn və dövrümüzə qədər qorunub çatan kitabələr xalqın savadlılıq səviyyəsinin göstəricisi kimi qiymətləndirilir. Həkkaklar ölkənin tarixi abidələri üzərində ən çox kufi, nəsx, süls və nəstəliq xətt növlərindən istifadə edərək müxtəlif məzmunlu yazılar həkk etmiş, beləliklə epiqrafika ilə yanaşı xəttatlıq sənətinin də inkişafına töhfə vermişlər (Xəlilbəyli, 2012: 4).

Azərbaycanın memarlıq abidələri üzərindəki ərəb, fars və türk dilli kitabələrdə sadalanan bütün xətt növlərinə rast gəlinir. Hər bir tarixi abidənin təyinatına uyğun olaraq mətnlərin məzmunu fərqlənmişdir. Məsələn:

- Məscid kitabələrində Qurani-Kərimin Tövbə surəsinin 18-ci ayəsi (9:18) və əl-Maidə surəsinin 55-ci ayəsi (5:55) kimi dini mətnlər yazılırdı;
- Çeşmələrdə su ilə bağlı ayələr və dualar işlənirdi;
- Türbələrdə dəfn olunan şəxsin dini xidmətləri və kimliyi haqqında məlumat verilir;
- Xanəgahlar və qala divarlarında dövrün hakimlərinin əmrləri qeyd edilirdi;
- Körpülərdə isə inşaatı maliyyələşdirən xeyriyyəçi şəxsin adı həkk olunurdu.

Memarlıq abidələri ilə yanaşı memorial abidələr üzərində də İslam epiqrafik yazılarına geniş rast gəlinir (Nemət, 1992; 104).

Azərbaycan ərazisindəki məzar daşları müxtəlif formalara malikdir: horizontal sənduqələr, at və qoç fiqurlu heykəllər, yuxarı hissəsi düz, dairəvi, çatma və günbəz formalı vertikal başdaşları və s. Bu daşların üzərində kufi, nəsx, süls və nəstəliq xətt növləri ilə yazılar, həmçinin dövrün xəttatları tərəfindən ustalıqla işlənmiş ornamentlər mövcuddur. Xətt bəşəriyyətin fikir əlaqəsini təmin etmək üçün yaradılmış şərti işarələr məcmusudur və qeyd olunan xətt nümunələri IX əsrdən XX əsrin əvvəllərinə qədər davamlı inkişaf yolu keçmişdir (Aliyeva, 2017: 255-261; Aliyeva, 2017: 157-161; Əliyeva və Quluzadə, 2018: 199-211).

Daş üzərində epiqrafik yazılarla yanaşı, orta əsrlərdə metaldan hazırlanmış silahlar, məişət qabları və ritual əşyalar üzərində də müxtəlif məzmunlu yazılar geniş istifadə olunmuşdur. Orta əsr sənətkarlarının yaratdığı nəfis sənət nümunələri dövrün iqtisadi, siyasi və sosial həyatını əks etdirməklə yanaşı, istehsal prosesinin təşkili, istehsal münasibətləri və sənətkarlıq məmulatlarının təkmilləşmə dinamikası haqqında da dəyərli məlumatlar verir. Bu əşyalar üzərindəki ornamentlər və epiqrafik yazılar xalqın adət-ənənələrini, məişətini, dini inanclarını və bədii zövqünü əks etdirən mühüm elementlərdən biridir.

**Bədii metalişləmə,** dekorativ-tətbiqi sənət nümunələrində yazı və ornamentlər qədimdən Azərbaycan xalqının zəngin mənəvi dünyasının ifadə vasitələrindən olmuşdur. Mahir ustalar soyuq və odlu silahların həndəsi və nəbati ornamentlərində əlvan metallardan inkrustasiya (basma), cilalama və kəsmə üsullarından geniş istifadə etmişlər. Silahların xüsusi hazırlanmış dəstək və qınları mina, həmçinin müxtəlif rəngli təbii daş-qaşlarla bəzədilmişdir. Həndəsi ornamentli haşiyə və medalyonlarda adətən ustanın və sahibinin adı, istehsal yeri və tarixi həkk olunurdu (Nemət, 2011: 45, 51, 78).

Orta əsrlərə aid metal əşyalar üzərindəki kitabələr ərəb, fars və türk dillərində olmuşdur. Silahlar üzərində aparılan epiqrafik araşdırmalar göstərir ki:

- IX-XIV əsrlərdə daha çox kufi xətti;
- XIV-XVI əsrlərdə süls və nəsx xətti;
- XVI əsrdən sonra nəstəliq xətti

üstünlük təşkil etmişdir. Bu nümunələrin bir hissəsi bu gün Azərbaycan muzeylərində qorunur və nümayiş etdirilir (Nemət, 2011: 12, 42, 52, 67, 90, 113).

Orta əsrlərdə döyüş silahları arasında qılınclar xüsusi yer tuturdu. Onların üzərində müxtəlif məzmunlu kitabələrlə yanaşı latın və kiril əlifbası ilə yazılmış yazılara da rast gəlinir. Ən çox işlənən mətnlər Qurani-Kərimdən götürülmüş ayələr idi. Məsələn:

- əl-Fatihə surəsi (1);
- əl-Bəqərə surəsinin ayələri (154, 249, 255, 256, 257);
- Ali-İmran surəsinin 26-cı ayəsi;
- ən-Nisa surəsinin 71-ci ayəsi;
- əl-Ənfal surəsinin ayələri (45 və 65);
- əl-Fəth surəsinin ayələri (1-11 və 28-29);
- əs-Saff surəsinin 13-cü ayəsi;
- əl-Qələm surəsinin ayələri (51-52);
- əl-Kafirun surəsinin 109-cu ayəsi;

və digər surə və ayələr. Bundan əlavə, silahlar üzərində peyğəmbər hədisləri də işlənmişdir. Bu hədislərdə düşmənə qalib gəlmək, kafirlərə qarşı mübarizə və döyüş silahlarının əhəmiyyəti barədə kəlamlar yer alırdı. Xəttatlar bu ayə və hədisləri yüksək sənətkarlıqla işləyərək silahsazların hazırladığı qılınclar üzərində ərəb əlifbasının müxtəlif xətt növlərində təsvir edirdilər. Nümunə olaraq Türkiyə Əsgəri Muzeyində qorunan, süls xətti ilə yazılmış silahlar göstərilə bilər (Askerî Müzesi, 2010: 2-5).

Hədis mətnlərində qılınclarla bağlı bir sıra diqqətçəkən kəlamlara rast gəlinir. Məsələn:

- اَلْجَنَّةُ تَحْتَ ظِلَالِ السُّيُوفِ
  *Biliniz ki, cənnət qılıncların kölgəsi altındadır.*
- قَالَ عَلَيْهِ السَّلَامُ: السُّيُوفُ مِفْتَاحُ الْجَنَّةِ
  *Əleyhisəlam (Məhəmməd Peyğəmbər) buyurdu: Qılınclar cənnətin açarıdır.*
  (101 hədis, 1990: 29)
- إِذَا سَلَّ الْمُسْلِمُ عَلَى أَخِيهِ الْمُسْلِمِ سَيْفًا فَلَا يَزَالُ مَلَائِكَةُ اللهِ تَعَالَى تَلْعَنُهُ حَتَّى يُشِيمَهُ عَنْهُ
  *Bir müsəlman öz müsəlman qardaşına qarşı qılınc çəkərsə, qılıncını qınına qoymayana qədər Allah-təalanın mələkləri ona lənət oxuyar.*

Müşahidələr göstərir ki, XI-XIII əsrlərdə məişət qabları üzərində ərəbdilli kufi xəttli kitabələrdən istifadə edən ustalar XIV əsrdən etibarən nəstəliq, süls və nəsx xəttli farsdilli kitabələrə üstünlük verməyə başlamışdır. Orta əsrlərdə fars dilində yazan klassik Şərq şairlərinin əsərlərindən faydalanan xəttatlar, təbii olaraq, dövrün məşhur farsdilli mətnlərinə müraciət edirdilər.

Fərqli həcmdə və epiqrafik kitabələri olan aşsüzənlər, məcməyilər və sinilər üzərində ustalar, qabın funksiyasına uyğun olaraq, klassiklərin şeirlərinə, hikmətli kəlamlara və dini ayələrə üstünlük verməklə yüksək bədii dəyərə malik sənət nümunələri yaratmışlar (Nemət, 2011: 5-7).

İslam təriqətlərinə mənsub süfi-dərvişlərin sifarişi ilə hazırlanmış atributlar - kəşkül, təbərzin və digər əşyalar üzərində də epiqrafik yazılar geniş yer almışdır. Bu yazılarda Qurani-Kərimdən

ayələr, hədislər, mənzum şeirlər və “isnə əşəriyyə” (on iki imamın adları) həkk edilir, bununla da həm ərəb dilinin incəlikləri, həm də İslamın müqəddəs mətnləri təbliğ olunurdu. Dini mərasimlərdə istifadə olunan metal məmulatlar üzərində Qurani-Kərimin ayələri (məsələn, 2:255-257), Allahın epitetləri, Məhəmməd peyğəmbərə və onun əhli-beytinə salamlar, “beşliyin” isimləri (Məhəmməd, Fatimə, Əli, Həsən, Hüseyn), ərəb atalar sözləri, eləcə də klassik fars şairi Kəmaləddin Möhtəşəm Kaşaninin (ö. 1587) Kərbəla şəhidlərinə həsr etdiyi mərsiyələr yer alırdı (Nemət, 2011: 45, 50, 84).

Orta əsr metal məmulatları müxtəlif yollarla Azərbaycandan kənara çıxarılırdı. Bu səbəbdən bəzi tədqiqatçılar sənət nümunələrimizi səhvən İran, Hindistan və digər ölkələrin ustalarına aid etmişlər. Belə nümunələrdən biri də Ermitaj Muzeyində qorunan və üzərində ərəb qrafikalı ərəb və farsdilli kitabələr olan metal əşyalardır. A.A.İvanov bu əşyaları tədqiq etmiş, lakin çox zaman Azərbaycan ustaları tərəfindən hazırlanmış məmulatları İran sənətinə aid etmişdir (Иванов, 1960: 41–44; Иванов, 1967: 94-104; Иванов, 1961: 243-250; Иванов, 1971: 97-103; Иванов, 1962: 44-59; Иванов, 1966: 65-71).

Azərbaycan və İran metalişləmə sənətləri arasında üslub baxımından oxşarlıqların olması təbiidir. Bu oxşarlığın əsas səbəblərindən biri orta əsrlərdə fars dilinin ədəbi və sənət mühitində geniş yayılması idi. Farsdilli kitabələrdən istifadə edən Azərbaycan ustaları metal məmulatlar üzərində Sədi Şirazi (1184-1282), Hafiz Şirazi (1320-1390) və Möhtəşəm Kaşani (1528-1588) kimi klassiklərin əsərlərinə müraciət edirdilər (Nemət, 2011: 3-4).

Azərbaycanın müxtəlif bölgələrində - Naxçıvan, Şirvan, Ərdəbil, Təbriz və digər şəhərlərdə yerli ustaların isimləri həkk olunmuş metal məmulatlar mühüm tarixi mənbə kimi qiymətlidir. Bu nümunələr hazırlanma texnikası, istehsal məkanı, tarixi və ustaların adları barədə zəngin məlumat təqdim edir və Azərbaycan maddi-mədəniyyətinin ən dəyərli nümunələri sırasında yer alır.

Tariximizə dair ən qiymətli ilkin mənbələrdən biri olan **daş kitabələrin araşdırılması və təhlili** üzrə düzgün elmi nəticələrin əldə olunması üçün respublikada peşəkar epiqrafçılara ciddi ehtiyac duyulur. Epiqrafçı olmaq istəyən şəxs, üzəri göbələk və mamır basmış kitabələri çətin çöl şəraitində təmizləməklə yanaşı, onların estampını çıxarmalı, ölçülərini götürməli, şəklini çəkməli və inventarlaşdırmalıdır.

“Estamp” termini fransız dilində estampe, italyanca isə stampe sözlərindən olub, bərk səthlər üzərindəki yazı və təsvirlərin basma üsulu ilə kağız və ya digər material üzərinə köçürülmüş surəti deməkdir. Bu üsul epiqrafik yazıların üzərində araşdırma aparmaq üçün son dərəcə çətin və məsuliyyətli bir işdir. Epiqrafçı alim bütün bu mərhələlərdən sonra tədqiqat obyektini elmi dövriyyəyə gətirməli, nəticələri bir neçə xarici dildə nəşr etdirməli və kütləyə çatdırmaqla təbliğ etməlidir. Azərbaycan xalqının əsrlər boyu müqəddəs saydığı İslam dövrünə aid ziyarətgahlar və pir kimi sosial-mədəni-ideoloji mərkəzlər bu baxımdan xüsusi önəm kəsb edir.

Epiqrafik abidə anlayışı əsasən 1930-1950-ci illərdə formalaşmışdır. Bu materiallar üzərindəki kitabələr mühüm tarixi-mədəni irs fondu sayılır və yaşayış məskənlərinin tarixi, yerli əhalinin sosial tərkibi barədə məlumat əldə edilməsində əvəzsiz köməkçi mənbələrdir. Məsələn, Naxçıvan bölgəsinin XII-XV əsrlərə aid ərəb və farsdilli epiqrafik materialları kəmiyyətcə az olsa da, xətt xüsusiyyətləri, mətnlərin tərtibi, kitabələrin həkk olunduğu materialın müxtəlifliyi və tarixi faktların zənginliyi baxımından sonrakı dövrlərin nümunələrindən daha dəyərlidir (Алескерзаде, 1949: 151-168).

Epiqrafçı alimlərin əsas tədqiqat obyektlərini qədim və orta əsrlərə aid memarlıq və memorial abidələr təşkil edir. İslam dininə görə məzar daşları sadə olmalıdır. Lakin İslamdan əvvəl və

sonra, vəfat edən şəxsin xatirəsini əbədiləşdirmək üçün dəbdəbəli qəbir abidələri ucaldılması geniş yayılmışdır. Məzar daşları üzərindəki kitabələr həmin yaşayış məntəqələrinin tarixinin ilkin yazılı mənbələridir və çox vaxt tariximizin qaranlıq qalan sahələrinin araşdırılması üçün mühüm ipucu rolunu oynayır (Неймат, 1991: 240; Неймат, 2001: 368; Неймат, 2008: 168; Неймат, 2011: 240; Əliyeva, 2010: 250-279; Əliyeva, 2018: 199-211; Əliyeva, 2022: 216-225).

Daşınar və daşınmaz memorial abidələrin araşdırılması, onların məhv edilməsinin qarşısının alınması istiqamətində tədbirlərin görülməsi vacibdir. Təbii fəlakətlər, heyvan və insan fəaliyyəti nəticəsində bu abidələr "yox olma" təhlükəsi ilə üz-üzədir. Buna görə də onların qorunması, bərpası və konservasiyası məsələlərinə ciddi yanaşılmalıdır. İtalyan peşəkar mütəxəssislərlə əməkdaşlıq bu problemlərin aradan qaldırılması və tarixi abidələrimizə ikinci həyat verilməsi baxımından mühüm əhəmiyyət daşıya bilər.

Təəssüf ki, 30 illik işğal nəticəsində Qarabağ və ətraf ərazilərdə milli sərvətlərimiz istismar olunmuş, talan edilmiş və mənimsənilmişdir. Mədəniyyət ocaqları, muzeylər, tarixi abidələr məhv edilmiş, qədim tarixi olan qiymətli əşyalar ölkəmizdən çıxarılmışdır. İşğalçı rejim İkinci Qarabağ müharibəsinin son günlərinədək bölgədə qanunsuz arxeoloji qazıntılar aparmış, tapıntılar Ermənistana daşınmışdır. Tarixi-mədəni abidələrimiz dağıdılmış, infrastruktur məhv edilmiş, məscidlər və onların minarələri uçurulmuş, ziyarətgahlar darmadağın edilmişdir (Qarabağlı, 2004: 21-23).

XXI əsrdə epiqrafik abidələrin öyrənilməsi **müasir texnologiyalardan istifadə** edilmədən mümkün deyildir. Telefon, planşet, kompüter, internet kimi vasitələrin sürətlə inkişafı tədqiqat prosesini əhəmiyyətli dərəcədə asanlaşdırır. Fotoaparatla yanaşı mobil telefonlar vasitəsilə kitabələrin çəkilməsi, onların internet üzərindən paylaşılması, müxtəlif ölkələrin epiqrafik materiallarına onlayn çıxış imkanları böyük üstünlüklər yaradır. Müasir avadanlıqlar vasitəsilə estampların surətini çıxarmaq, materialları elektron formatda saxlamaq və araşdırmaq daha operativ həyata keçirilir.

Epiqrafik tədqiqatların nəticələri - inventarlaşdırılmış kitabələrin estampları, tərcümələri, fotoşəkilləri və pasportları PDF formatında hazırlanaraq veb-saytlar və mobil tətbiqlər vasitəsilə geniş auditoriyalara təqdim edilməli, beynəlxalq arenada tanıdılmalıdır (Əhmədova, 2022).

**Epiqrafik hesabatlar** epiqrafik adidələrin öyrnilməsində mühüm əhəmyyətə malikdir. Azərbaycan memarlıq abidələri və məzar daşlarının üzərindəki kitabələrin öyrənilməsinə XIX əsrin əvvəllərində xarici şərqşünas alimlər başlamışdır.

XVIII əsrdən etibarən Qafqaza maraq göstərən rus səyyah və səfirləri, eləcə də alimlər çarizmin müstəmləkəçilik siyasəti çərçivəsində Qafqaz xalqlarının maddi mədəniyyətini, siyasi-iqtisadi və mədəni əlaqələrini araşdırmağa üstünlük verirdilər. I Pyotrun (1672-1725) əsas məqsədlərindən biri Qafqazı ələ keçirmək idi. Bu məqsədlə Peterburq Şərqşünaslıq Akademiyasının qafqazşünasları xüsusi olaraq bu işə cəlb olunmuşdu (Орбели, 1972: 230, 468).

1830-cu illərdə Qafqazın, o cümlədən Azərbaycanın İslam epiqrafik abidələrinin öyrənilməsində mühüm rol oynamış məşhur şərqşünaslar sırasında N.V.Xanıkov (Ханыков, 1850; 1854; 1862), Gəncə darvazalarının kufi xətli kitabələrini və 1835-1837-ci illərdə Naxçıvanın epiqrafik nümunələrini tədqiq etmiş X.Fren (Френ, 1926), Azərbaycanın bəzi tarixi abidələrinin estampını çıxararaq Sankt-Peterburqda geniş arxiv yaratmış V.A.Dorn (Дорн, 1861; 1864) kimi alimlərin adlarını çəkmək olar.

Məşhur şərqşünas-epiqrafçılardan biri də V.A.Kraçkovskaya olmuşdur (Крачковская, 1939: 11-29; Крачковская, 1948: 19-40; Крачковская, 1951: 7-31; Крачковская, 1956: 3-15). Onun ən mühüm araşdırmalarından biri XI-XIII əsrlərə aid şirvanlı şeyx Pir Hüseynin (ö. h. 467 /

m. 1074-1075) qəbri ətrafındakı xanəgahın bədii kaşıları üzərindəki nəsx xətti ilə ərəb dilində yazılmış Qurani-Kərim ayələrini, hikmətli kəlamları və Xaqani Şirvani ilə Cəlaləddin Ruminin şeirlərini oxuyub təhlil etməsidir (Rıhtım & Xəlilli, 2011: 14-15). Kraçkovskayanın qeyd etdiyinə görə, 1907-ci ildə xanəgahda ilk "fəaliyyət" göstərən şəxs Tiflis Qafqazşünaslıq İnstitutunun elmi katibi S.V.Ter-Avetsyan olmuşdur. O, kompleksin bir neçə kaşısının təsvirini və fotosunu Kraçkovskayaya təqdim etmiş, lakin onun səfərindən sonra həmin kaşı parçalarının hamısı yoxa çıxmışdır. Daha sonra bu nadir nümunələrin bir qisminin Avropa muzeylərinə aparıldığı məlum olmuşdur. Azərbaycanın tanınmış epiqrafçısı Məşədixanım Nemət həmin kaşıların hansı yollarla Sankt-Peterburq Dövlət Ermitajına və Tbilisi İncəsənət Muzeyinə gətirilməsi barədə "Azərbaycan pirləri" kitabında geniş məlumat vermişdir (Nemət, 1992: 8-13).

Bəzi xarici alimlər tərəfindən araşdırılan bir sıra abidələrimiz bilərəkdən başqa xalqların adına çıxarılmış, bəzi kitabələr isə qəsdən məhv edilmişdir. Bu "alimlər" Azərbaycanın zəngin epiqrafik irsindən şəxsi arxivlər yaratmaqla yanaşı, onun tarixi-mədəni dəyərlərinin mənimsənilməsinə səbəb olmuşlar. Bu halın başlıca səbəblərindən biri Qafqazın mühüm strateji bölgəsi olan Azərbaycan torpaqlarında qədim və çoxsaylı yazılı abidələrin mövcudluğudur.

Bununla yanaşı, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Qarabağ ərazilərinin yerüstü və yeraltı sərvətləri 30 ilə yaxın müddətdə istismar edilmiş, talan edilərək Ermənistana daşınmışdır. İşğalçılar türk-islam sənətini əks etdirən daşınmaz memarlıq abidələrimizi dağıtmış, gülləbaran etmişdir. Lakin bizdən əvvəl yaşamış epiqrafçı alimlərin hesabatları bu gün mühüm epiqrafik mənbə rolunu oynayır.

Bu il anadan olmasının 130 illiyi qeyd edilən, Azərbaycanda Epiqrafika məktəbinin yaradıcısı, tarix elmləri doktoru Əjdər Ələsgərzadə (1895-1964) öz dövründə epiqrafik abidələr üzərindəki kitabələri qismən də olsa ilk dəfə toplaya bilmişdi. Azərbaycan SSR Elmlər Akademiyasının qərarı ilə o, 1945-ci il 27 may - 14 iyun tarixlərində Şuşa, Ağdam və Bərdə şəhərlərindəki tarixi memarlıq abidələri və məzar daşları üzərindəki epiqrafik kitabələri toplamaq və tədqiq etmək üçün ezam olunmuşdu. Ələsgərzadə hesabatında Şuşa şəhərində mövcud olan məscidlər, mədrəsələr, karvansaralar, hamamlar, bulaqlar və ədəbi məclislərin keçirildiyi binalar haqqında ətraflı məlumat vermişdir. Onun ekspedisiyada əldə etdiyi mühüm məlumatlardan biri də Qarabağda yaşamış məşhur simalardan bəzilərinin Şuşada, digərlərinin isə Ağdam və Bərdə qəbiristanlıqlarında dəfn olunması ilə bağlıdır (Ələsgərzadə, 1947: 161-162).

Azərbaycan epiqrafikasının ilk milli tədqiqatçıları sırasında İ.M.Əzimbəyov, Ə.Ə.Ələsgərzadə, Ə.N.Hüseynov və Məşədixanım Nemət yer alır. Bu sırada xüsusilə professor, tarix elmləri doktoru Məşədixanım Nemətin (1924-2016) xidmətləri xüsusi qeyd olunmalıdır. Onun çoxsaylı məqalələri və altı cildlik "Azərbaycanın epiqrafik abidələri toplusu" əsəri orta əsrlər Azərbaycanının sosial, siyasi və mədəni həyatı haqqında nadir məlumatlar təqdim edən, bəzən isə yeganə yazılı mənbə rolunu oynayan qiymətli tədqiqatlardır (Неймат, 1991; Неймат, 2001; Неймат, 2008; Неймат, 2011). Hazırda Naxçıvan İslam epiqrafik abidələrinin aparıcı tədqiqatçısı, AMEA-nın müxbir üzvü Hacı Fəxrəddin Səfərlinin (Səfərli, 1998: 84; Səfərli, 2018: 40; Səfərli, 2018: 216; Səfərli, 2019: 152) çoxsaylı əsərləri bu sahəyə dəyərli töhfədir.

Sələflərimizin miras qoyduğu epiqrafika elmini davam etdirmək bizim üçün həm elmi, həm də mənəvi borcdur. Bu məqsədlə 2010-cu ildən etibarən bir sıra sahələrdə sistemli tədqiqatlar aparılmışdır. Orta əsr Ağsu şəhəri ətrafındakı qəbiristanlıqlar, Ağsudakı Şeyx Dursun türbəsi ətrafındakı sənduqə tipli məzar daşları, Abşeron rayonunun Hökməli kəndindəki Sufi Həmid piri və ətrafındakı müxtəlif boyalarla rənglənmiş məzar daşları, Şəmkir rayonunun Qapanlı kənd qəbiristanlığındakı baxımsız zoomorf (at və qoç fiqurlu) məzar daşları, Şamaxı şəhərində XV əsrin tanınmış şairi Nəsiminin qardaşı Şahxəndanın (Şah-i Xəndan) türbəsindəki məzar

daşları, İsmayıllı rayonunun Basqal kənd məscidləri və məzar daşları, Şamaxının Kələxana türbələr kompleksi ətrafındakı sənduqə tipli qəbir daşları tədqiqata cəlb olunmuşdur (Macchia və digərləri, 2019; Əliyeva, 2019; Əliyeva & Xəlilli 2019).

Aparılan işlər çərçivəsində məzar daşlarının ətrafı kol-kos və göbələklərdən təmizlənmiş, inventarlaşdırma aparılmış, kitabələrin estampları çıxarılmış, ölçüləri götürülmüş, fotoları çəkilmişdir. Toplanan materiallar hesabatlarda qeyd edilmiş, kitabələr transkripsiya edilərək kataloq-kitab şəklində nəşrə hazırlanmışdır.

Qarabağda epiqrafik araşdırmalar İkinci Qarabağ müharibəsində əldə edilən Böyük Zəfərdən sonra mümkün olmuşdur. İşğaldan azad edilən ərazilərdə dini-tarixi memarlıq abidələri, qəbiristanlıqlardakı sənduqələr, qoç və at fiqurlu məzar daşları, çeşmələr, körpülər və yaşayış binalarının ermənilər tərəfindən bilərəkdən dağıdılması, məhv edilməsi və saxtalaşdırılması faktları qeydə alınmışdır. Məsələn, Şuşada Mamay çeşməsi üzərindəki fars dilindəki kitabə silinmiş, yerinə xaç işarəsi həkk edilərək abidə xristianlaşdırılmışdı.

2022-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "Şuşa İli"nə həsr olunmuş xüsusi müsabiqəsinin qalibi olan "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin "Şuşanın tarixi-mədəni irsinin tədqiqi və təbliği" layihəsi çərçivəsində Şuşa şəhərində epiqrafik tədqiqatlar aparılmışdır. Layihənin ekspertləri - tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli, tarix üzrə fəlsəfə doktoru Həbibə Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günel Seyidəhmədli və filologiya üzrə fəlsəfə doktoru Şəhla Xəlilli fəaliyyət planına uyğun olaraq Şuşa şəhərinə ezam edilmişdir. Səfərin məqsədi Şuşa şəhərində bəzi tarixi binaların üzərindəki kitabələrin estampını çıxarmaq, onları kataloqlaşdırmaq və oxunmasını təmin etmək idi. Səfər müddətində İkimərtəbəli karvasaranın üzərindəki dörd kitabə, Əsəd bəyin evinin üzərindəki iki kitabə, Uğurlu bəyin evinin üzərindəki bir kitabə, Hacıqulların malikanəsi üzərindəki iki kitabə, Şirin bəyin evi üzərindəki bir kitabə, Bülbülün evinin üzərindəki iki kitabə və Seyidli məscidinin yanındakı binanın üzərindəki bir kitabənin, cəmi on üç kitabənin estampı çıxarılmışdır. Bu kitabələrin oxunması və əvvəlki oxunmalarla müqayisəsi Şuşanın tarixi və mədəniyyətinin öyrənilməsinə yeni izahlar gətirmişdir (Əliyeva, 2022: 135-168).

Şuşadakı acınacaqlı mənzərə Qarabağın Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər və digər bölgələrində ilk orta əsrlərə aid məscid-mədrəsələr, türbələr, qədim qəbiristanlıqlardakı sənduqələr, qoç və at fiqurlu məzar daşlarının yararsız hala gətirilməsini təsdiqləyən danılmaz faktlarla bir daha üzə çıxmışdır (Aliyeva, 2022: 274-284).

Tədqiqatların əsas məqsədi strateji əhəmiyyətə malik Qarabağda ulu əcdadlarımızdan miras qalan epiqrafik abidələri bərpa edərək mədəni turizm vasitəsilə təbliğ etmək, ərəb-fars-türkdilli kitabələr əsasında Qarabağın qədim Azərbaycan yurdu olduğunu sübut etmək və bu həqiqətləri bölgəyə gələn turistlərə çatdırmaqdır. Bu məqsədlə Türk Dünyası ilə elmi və mədəni irs turizmi sahəsində əməkdaşlığın gücləndirilməsi, birgə beynəlxalq layihələrdə abidələrin genişmiqyaslı elmi tədqiqi, nəticələrin kataloq şəklində bir neçə dildə nəşri və Qarabağın sosial, siyasi, mədəni irsinin tarixi baxımdan yenidən dəyərləndirilməsi nəzərdə tutulur.

Bu epiqrafik nümunələr Azərbaycan tarixinin və epiqrafik toplusunun mühüm hissəsidir. Onların qorunması və gələcək nəsillərə çatdırılması üçün əsas hədəflər aşağıdakılardır:

- Bərpa və konservasiya - Böyük Zəfərdən sonra günümüzə qədər gəlib çatan tarixi memarlıq abidələrinin "yox olma" təhlükəsindən qorunması üçün bərpa və konservasiya işlərinin yerli və xarici mütəxəssislər tərəfindən həyata keçirilməsi;
- Rəqəmsallaşdırma və kataloqlaşdırma - Epiqrafik abidələrin rəqəmsallaşdırılması, kata-

loqlarının hazırlanması, 3D modellərinin yaradılması;
- Virtual sərgilər - Qarabağda dünya mədəni irsi siyahısına namizəd ola biləcək daşınmaz epiqrafik abidələrin ermənilər tərəfindən dağıdıldığını vizual şəkildə nümayiş etdirmək üçün virtual sərgilərin təşkili;
- Maarifləndirmə kampaniyaları - "Qarabağın Mədəni Mirasının Qorunması və Yayılması" adlı kampaniya çərçivəsində vətənpərvər könüllülərin iştirakı ilə turistlərə erməni vandalizmi nəticəsində dağıdılmış, məhv edilmiş və mənimsənilmiş türk-islam memarlıq abidələri haqqında məlumatların çatdırılması;
- Foto-sənədləşdirmə - Abidələrin işğaldan əvvəlki, işğal dövrü və işğaldan sonrakı fotoşəkillərini əhatə edən sərgilərin təşkil edilməsi;
- Elmi və ictimai nəşrlər - Mövzu ilə bağlı alimlərin və mütəxəssislərin məqalələrinin mətbuatda geniş şəkildə dərc edilməsi, bir neçə dildə kitab-albomların nəşri;
- Elmi tədbirlər - Qarabağ bölgələrində arxeoloji, dini-tarixi və epiqrafik abidələrə dair mövzularda respublika və beynəlxalq seminar və simpoziumların təşkili;
- Beynəlxalq hüquqi mübarizə - Ermənistan Silahlı Qüvvələrinin Birinci və İkinci Qarabağ müharibəsi zamanı bölgələrimizdə dağıtdığı mədəni irs nümunələrinin beynəlxalq hüquq çərçivəsində tanıdılması və məsuliyyətin tələb edilməsi.

Bu məqsədlərin həyata keçirilməsi Qarabağda epiqrafik irsin qorunması, dünya ictimaiyyətinə tanıdılması və gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyət daşıyır.

**Nəticə.** Aparılan araşdırmalar göstərir ki, Qarabağ torpaqlarındakı İslam epiqrafik abidələri üzərində yer alan ərəb, fars və türk dilli kitabələr bölgənin tarixi-mədəni mənsubiyyətini təsdiq edən ən mühüm sübutlardan biridir. Azərbaycanın əvvəlki dövrlərdə fəaliyyət göstərmiş epiqrafçı alimləri müxtəlif bölgələrdəki məscid, mədrəsə, türbə, xanəgah, körpü, çeşmə və məzar daşları üzərindəki kitabələri öyrənsələr də, bu epiqrafik irsin üzərində sistemli tədqiqatların aparılması və bütün məlumatları əhatə edən vahid kataloq-albomun hazırlanması hələ də mövcud deyil.

Şübhəsiz ki, ilk orta əsrlərdən inşa edilən abidələr üzərindəki yazıların epiqrafik baxımdan araşdırılması, onların sistemli kataloq şəklində nəşri və kitabələrdə əks olunan məlumatların sosial, siyasi, dini və mədəni irs kontekstində yenidən dəyərləndirilməsi Azərbaycan tarixi üçün mühüm əhəmiyyət kəsb edir.

Bu tədqiqatların əsas məqsədi, ölkəmizdə mövcud epiqrafik abidələri toplayaraq vahid bir nəşr formasında təqdim etmək və bu mirası həm yerli ictimaiyyətə, həm də ölkəmizə gələn turistlərə tanıtmaqdır. Ümid edirik ki, Azərbaycanın epiqrafik irsinin öyrənilməsinə maraq göstərən vətənpərvər gələcək nəsillər bu müqəddəs yolda bizə layiqli davamçılar və yol yoldaşları olacaqlar.

**Ədəbiyyat:**

Aliyeva, H. (2016). Azərbaycan'da eski türklerin totemi olarak kabul edilen koç ve at figürlü mezar taşları. Uluslararası Türk Dünyası Eğitim Bilimleri ve Sosyal Bilimler Kongresi'nin materialları (1-4 Aralık 2016, Antalya), 255-261. Antalya.

Aliyeva, H. (2017). Kafkasya mezar taşları Türk'ün tarihi mührüdür. VIII. Uluslararası Türk Sanatı, Tarihi ve Folkloru Kongresi/Sanat Etkinlikleri (04-06 Mayıs 2017, Konya, Türkiye), 157-161.

Aliyeva, H. (2018). Azerbaycan'daki tarihi mezar taşlarının epigrafik kitabeleri ve mevcut durumları hakkında. I. Uluslararası Geleneksel Türk Mezar Taşları Sempozyumu Bildiri Kitabı (19-21 Eylül 2018, Bakü, Azerbaycan), 111-116.

Aliyeva, H. (2022). Vandal Armenians' intervention in Shusha epigraphic monuments. In III. International of Modern Studies in Social Sciences and Humanities "Year of Shusha – 2022" (7-10 June 2022, Karabakh, Azerbaijan), 274-284. IKSAD Publications.

Alyılmaz, C. (2010). Azerbaycanda eski Türk izleri. I Uluslararası Uzak Asyadan Ön Asyaya Eski Türkçe Bilgi Şöleni Bildirileri. Afyonkarahisar: Afyon Kocatepe Üniversitesi Yayınları.

Askeri Müze Hat Kolleksiyası (2001). Hazırlayan: Öğ. Kd. Bnb. Sadık Tekeli. İstanbul: Ajans Tuncel A.Ş.

Azərbaycan Respublikası. (1998). Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu (10 aprel 1998, № 470-IQ). Əldə edilib: 08.08.2025. https://e-qanun.az/framework/3526

Azərbaycan Tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). (1996). Bakı: Azərbaycan.

Azərbaycanın tarixi abidələri. (1958). Bakı: Qızıl Şərq. (AEA Azərbaycan Tarixi Muzeyi).

Bünyadov, Z. (1989). Azərbaycan VII–IX əsrlərdə. Bakı: Azərnəşr.

Əhmədova, P. (2022, 30 aprel). Müasir texnologiyalar bizə nə qazandırır? İki Sahil. Əldə edilib: 08.08.2025, https://ikisahil.az/post/307318

Ələsğərzadə, Ə. Ə. (1947). Şuşa-Ağdam-Bərdə səfəri. Azərbaycan SSR Elmlər Akademiyasının 1945-ci il ekspedisiyaları (s. 161-162). Bakı: Azərbaycan SSR EA nəşriyyatı.

Əliyeva, H. (2010). Ağsunun epiqrafik abidələri (Şəhər qəbiristanlığının XVIII əsrə aid ərəb və fars dilli kitabələri əsasında). Ağsu şəhəri orta əsrlərdə: Tarixi-arxeoloji araşdırma (II buraxılış, s. 250–279). Bakı: CBS.

Əliyeva, H. (2016). Azərbaycandakı epiqrafik abidələrin restavrasiyası və onların bu günkü durumu haqqında. Milli-Mədəni irs və onun qloballaşma şəraitində təbliği məsələləri (Azərbaycan Respublikası Təhsil Nazirliyi Mingəçevir Universiteti Respublika elmi konfransının materialları, 22-23 aprel 2016, s. 37-40). Mingəçevir.

Əliyeva, H., & Quluzadə, N. (2018). Şəmkir rayonunun Qapanlı kənd qəbiristanlığındakı zoomorf məzar daşları. Milli Azərbaycan Tarixi Muzeyi (s. 199-211). Bakı: Elm.

Əliyeva, H. (2018). Azərbaycanın epiqrafik abidələrinin bərpasında italyan mütəxəssislərin rolu [İngilis dilində]. YOKOKU 2018: Mədəni irs sahəsində dialoqlar (VI Beynəlxalq YOKOKU Konfransı materialları, 22-26 may 2018, s. 113-131). Matera, İtaliya.

Əliyeva, H. (2019). Şaxəndan türbəsindəki məzar daşlarının ilkin tədqiqatına dair. İçində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş Türk Dünyası dövlətçilik irsi: I Beynəlxalq Ağsu Simpoziumu (s. 45–55). Bakı: Elm və Təhsil.

Əliyeva, H. (2022a). Ağdamda "İmarət" kompleksinin epiqrafik və qəbirüstü abidələri. V Beynəlxalq Həmzə Nigari Simpoziumu materialları (Eşqin kanı Qarabağdır!) - 2022-ci il Şuşa ilinə həsr olunur (17-19 may 2022, s. 216-225). Bakı.

Əliyeva, H. (2022b). Epiqrafika. Şuşa: Tarixi-mədəni irsin tədqiqi (Haz. F. Xəlilli). Bakı: Elm və Təhsil. (s. 135-168).

Əliyeva, H., & Xəlilli, F. (2019). *Basqal epiqrafikası* (I kitab-albom, 56 s.). Bakı: Elm və Təhsil.

Həsənli, Q. H. S. (Tərtib və tərc.). (1990). 101 hədis (Həzrəti Muhəmməd əleyhisəlamın söylədikləri) (30 s.). Bakı: Dan yeri.

Xəlilbəyli, G. (2012, 22 dekabr). Qədim xalq sənəti – xəttatlıq. Şərq Qapısı (Gündəlik ictimai-siyasi qəzet), sayı: 243 (20.648), s. 4.

Konstitusiya. (1995). Azərbaycan Respublikasının Konstitusiyası. Əldə edilib: 08.08.2025. https://e-qanun.az/framework/897

Qarabağlı, R. (2004). Qarabağ şəhəri: (Şuşa abidələri haqqında). Elm və həyat, (1), 21-23. Bakı.

Qaşqay, S. M. (2006). Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (91 s.). Bakı: Təhsil.

Macchia, A., La Russa, M. F., Xəlilli, F., Əliyeva, H., Rivaroli, L., Albini, R., Xəlilli, Ş., Əliyeva, G., Cəfərli, T., & Ağalarov, F. (2019). İtaliya və Azərbaycan bərpaçılarının əməkdaşlığı: Şeyx Dursun türbəsinin konservasiya və konsolidasiyası layihəsi – Cooperation of Italian and Azerbaijani restorers: Conservation and consolidation project of Sheikh Dursun Tomb. İçində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş Türk Dünyası dövlətçilik irsi: I Beynəlxalq Ağsu Simpoziumu (s. 104-108). Bakı: Elm və Təhsil.

Nemət, M. (1992). Azərbaycanda pirlər (104 s.). Bakı: Azərnəşr.

Nemət, M. S. (2011). Azərbaycanda epiqrafik abidələr toplusu. Mis qablar, silahlar, bayraqlar üzərindəki ərəb-fars dilində olan kitabələr XVII–XIX əsrlər (VI cild, 144 s.). Bakı: Elm və Təhsil.

President.az. (2023). Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası ilə bağlı çıxışı. Əldə edilib: 08.08.2025. https://president.az/az/articles/view/50632

Rıhtım, M., & Xəlilli, F. (2011). Mövlanə İsmayıl Sizracəddin Şirvani və Qafqazlı müridlər (165 s.). Bakı: CBS.

Rüstəmov, C. (1994). Qobustan dünyası. Bakı: Azərnəşr.

Rzayev, N. (2019). Qayalar danışır (392 s.). Bakı: Elm və Təhsil.

Səfərli, H. (1998). Naxçıvan ziyarətgahları (84 s.). Bakı: Qorqud.

Səfərli, H. (2018). Naxçıvanın məscid və ziyarətgahları (216 s.). Naxçıvan: Əcəmi NPB.

Səfərli, H. (2018). Naxçıvan türbələri (40 s.). Naxçıvan: Əcəmi NPB.

Səfərli, H. (2019). Naxçıvan şəhərinin epiqrafik abidələri (152 s.). Naxçıvan: Əcəmi NPB.

Алескер-заде, А. А. (1949). Надписи старинных архитектурных памятников Нахичеванского края. Известия АН Азерб. ССР, (5), 151–168. Баку: Издательство АН Азерб. ССР.

Алиев, К. (1992). Античная Кавказская Албания. Баку: Азернешр.

Ашурбейли, С. Б. (1974). О датировке и назначении Гыз галасы в крепость Баку. Известия АН Азерб. ССР. Серия истории, философии и права, (3). Баку: Издательство АН Азерб. ССР.

Дорн, Б. (1861). Отчет об ученом путешествии по Кавказу и южному берегу Каспийского моря. Санкт-Петербург.

Дорн, Б. (1864). Атлас к путешествию Б. Дорна по Кавказу и южному побережью Каспийского моря (Ч. VIII). Санкт-Петербург: ТВО.

Иванов, А. А. (1960). Медная чаша 811 г.х. (1408-1409 гг.) со стихами Хафиза. Сообщения Государственного Эрмитажа, XIX, 41-44. Ленинград.

Иванов, А. А. (1967). Иранский медный поднос XIV в. Эпиграфика Востока, 7, 94-104. Ленинград.

Иванов, А. А. (1961). О принципах медных и бронзовых Ирана XV-XVIII вв. Труды Государственного Эрмитажа, V, 243-250. Ленинград.

Иванов, А. А. (1971). Три предмета со стихами Джами. Эпиграфика Востока, XX, 97-103. Ленинград.

Иванов, А. А. (1962). Персидские миниатюры. Альбом индийских и персидских миниатюр XXI–XVIII вв. (s. 44-59). Москва: Наука.

Иванов, А. А. (1966). Данные эпиграфики и вопросы датировки иранских медных и бронзовых изделий XIX в. Эпиграфика Востока, 17, 65-71. Ленинград.

Крачковская, В. А. (1939). Изразцы мавзолея Пир Хусайна. ТИК, Доклады, 11-29. Москва–Ленинград: Издательство АН СССР.

Крачковская, В. А. (1948). Неизвестный альбом по арабской и персидской эпиграфике. Эпиграфика Востока, 2, 19-40. Ленинград: Издательство АН СССР.

Крачковская, В. А. (1951). Из архивного наследия Н. Ханыкова и Б. Дорна. Эпиграфика Востока, 4, 7-31. Ленинград: Издательство АН СССР.

Крачковская, В. А. (1956). Арабская эпиграфика на Кавказе с 60-х гг. XIX в. до Октябрьской революции. Эпиграфика Востока, 12, 3–15. Ленинград: Издательство АН СССР.

Неймат, М. С. (1991). Корпус эпиграфических памятников Азербайджана. Арабо-персо-тюркоязычные надписи Баку и Апшерона (XI - начало XX века) (Т. 1, 240 с.). Баку: Элм.

Неймат, М. С. (2001). Корпус эпиграфических памятников Азербайджана (Т. 2, 368 с.). Баку: XXI - Yeni Nəşrlər Evi.

Неймат, М. С. (2008). Корпус эпиграфических памятников Азербайджана (Т. 4, 168 с.). Баку: Нурлан.

Неймат, М. С. (2011). Корпус эпиграфических памятников Азербайджана (Т. 5, 240 с.). Баку: Элм и Təhsil.

Орбели, Р. Р. (1972). Кавказоведение: Азиатский музей - Ленинградское отделение Института востоковедения АН СССР (499 с.). Москва: Наука.

Пахомов, Е. (1949). Доисламские печати и резные камни Музея истории Азербайджана. Известия Азербайджанского археологического комитета, 11, 106-110.

Френ, Х. М. (1926). Железные (Гянджинские) ворота. Известия Азербайджанского археологического комитета, 11. Баку.

Ханыков, Н. В. (1850a). Археологические открытия (известие о 12 мусульманских надписях в Закавказье). Кавказ, (52-53).

Ханыков, Н. В. (1850b). О некоторых арабских надписях в Дербенте и Баку. Учёные записки Императорской Академии наук, 1. Санкт-Петербург.

Ханыков, Н. В. (1854). Письмо непременному секретарю от 19 мая 1853 г. из Баку. Учёные записки Императорской Академии наук, II. Санкт-Петербург.

Ханыков, Н. В. (1862). Арабская надпись 843 г.х. каравансарая в Сенгилах. Bulletin historique-philologique de l'Académie impériale des sciences de Saint-Pétersbourg, IX(2); Journal Asiatique, ser. V, tome X.

Göndərildi: 08.08.2025
Qəbul edildi: 22.08.2025
Təqdim etdi: Həbibə Əliyeva
İstinad: Əliyeva, H. (2025). Mədəni irs abidələri üzərindəki epiqrafik tədqiqatlar. F. Xəlilli (Hazırlayan). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. (s. 129-141). Bakı: AFPoliqrAF. https://doi.org/10.30546/978-9952.2025.1129

AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ
BAKI - 2025